**Azərbaycan Respublikasına səfər edən xarici nümayəndə heyətlərinə mühafizənin ayrılması qaydaları.**

Azərbaycan Respublikasına səfər edən xarici nümayəndə heyətlərinin rəhbərlərinə Azərbaycan Respublikasımn Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən mühafizə ayrıla bilər.

Azərbaycan Respublikasına səfər edən aşağıdakı şəxslər Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən mühafizə ilə təmin olunur:

- Xarici dövlətlərin dövlət başçıları, hökumət başçıları, parlament sədrləri və xarici işlər nazirləri;
- Öz ölkələrində mühafizə obyekti olduqları təqdirdə, xarici dövlətlərin dövlət başçılarının, hökumət başçılarının və parlament sədrlərinin ailə üzvləri;
- BMT Baş Katibi və mühafizə obyekti olan digər beynəlxalq təşkilatların rəhbərləri;
- Öz ölkələrində mühafizə obyekti olan Azərbaycan Respublikasına mühafizəsiz səfər edən nümayəndə heyətlərinin rəhbərləri.Bununla əlaqədar, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Dövlət Protokolu idarəsinə müvafiq nota ilə müraciət edilməlidir. Notada səfərin məqsədi, nümayəndə heyətinin tərkibi, marşrutun göstərilməsi şərtilə dəqiq gəlmə və getmə tarixləri (proqram əlavə oluna bilər), mühafizə obyektlərini müşayiət edəcək mühafizəçilər barədə məlumatlar təqdim edilməli və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən mühafizənin ayrılması xahiş olunmalıdır.

Bu zaman Azərbaycan Respublikası ərazisində qüvvədə olan aşağıdakı qaydalar nəzərə alınmalıdır:

***a)*** **Mühafizə obyektini müşayiət edən mühafizə zabitlərinin Azərbaycan Respublikasına silahların və rabitə vasitələrinin gətirməsi və müvəqqəti gəzdirməsi qaydaları.**

Səfirliklər (diplomatik nümayəndəliklər) təklifləri yazılı formada, nota şəklində planlaşdırılmış gəlişdən ən azı 5 iş günü əvvəl Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinə göndərməlidir. Nota doldurulmuş 1a, 1b və 1c formaları ilə birlikdə göndərilməldir (əlavə olunur).

Silahların gətirilməsi və müvəqqəti gəzdirilməsi üçün icazəni Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti verir. İcazəyə, silahın Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş Azərbaycan Respublikasında gəzdirilməsi, tətbiqi və istifadə olunması qaydaları əlavə olunur.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası ərazisində digər ölkələrin mühafizə zabitləri tərəfindən avtomat silahların gəzdirilməsinə icazə verilmir.

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti təqdim olunan radio tezliklərin istifadə olunmasına icazə verilməsi məsələsinə baxacaqdır. Tələb olunan tezliklərin verilməsi mümkün olmadığı təqdirdə istifadə üçün digər tezliklər təklif olunacaqdır.

Əgər nümayəndə heyəti ölkəyə hər hansı bir əlavə xüsusi texnika və ya avadanlıqlar gətirməyi planlaşdırırsa, həmin xüsusi texnikadan ölkədə istifadə edilməsi üçün əvvəlcədən icazə alınması vacibdir. Məlumatlar notaya əlavə olunmalıdır.

***b)*** **Xüsusi təyyarənin qorunması ilə əlaqədar icazə qaydaları.**

Mühafizə obyektinin gəldiyi xüsusi təyyarənin qorunması ilə əlaqədar Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Dövlət Protokolu idarəsinə nota ilə müraciət olunmalıdır.

Əgər ölkəyə gələn mühafizə əməkdaşları da təyyarənin mühafizəsində iştirak etmək istəyərlərsə, həmin şəxslər barədə ətraflı məlumatlar notaya əlavə olunan 1b və 1c formalarında göstərilməlidir.

**<u>Əlavə 1a</u>**

| Mühafizə obyektinə aid olan məlumatlar | |
|---|---|
| Ölkə | |
| Mühafizə obyektinin adı | |
| Mühafizə obyektinin vəzifəsi | |
| Mühafizə obyektinin qan qrupu | |
| Olkəyə gəliş haqqında məlumatlar (təyyarənin uçuş(reysin) və qeydiyyat nömrəsi) | |
| Gəliş yeri, günü və saatı | |
| Gediş yeri, günü və saatı | |
| Haradan gəlir? | |
| Haraya gedir? | |
| Təyyarənin tipi | |
| Əlavə qeydlər | |

**Əlavə 1b**

| Mühafizə zabitlərinə aid məlumatlar | |
|---|---|
| Mühafizə zabitinin adı və soyadı | |
| Doğum tarixi | |
| Pasport nömrəsi | |
| Silahlı mühafizə zabiti ölkəyə mühafizə obyekti ilə birlikdə gələcək? | Bəli/Xeyr* |
| Ölkəyə gəliş haqqında məlumatlar (təyyarənin uçuş (reysin) və qeydiyyat nömrəsi) | |
| Azərbaycan Respublikasına gələrkən mühafizə zabitinin üstündə silah olacaq? | Bəli/Xeyr* |
| **Silahla bağlı məlumatlar** | |
| Növü | |
| Kalibrı | |
| Markası | |
| Modeli | |
| Seriya nömrəsi | |
| Sursatların sayı | |

**Qeyd:**

* Lazım olan variantı yazın.

**Əlavə 1c**

| Mühafizə zabitlərinin istifadə etdiyi rabitə vasitələri haqqında məlumat | |
|---|---|
| Rabitə vasitələrinin növü | |
| Rabitə vasitələrinin sayı | |
| Təklif olunan tezliklər* | |
| Radiodalğaların əhatə dairəsi | |
| Kanallarm yayımlanması | |
| Maksimum radiyasiya gücü (W) | |
| Əlavə tələblər | |

**Qeyd:**

* Tezliklərin dövlət nömrəsi və xəttlərin həddi (məsələn: xx tezliyi xx-yy MHz limitində), yaxud tələb olunan tezliklər.